**RAZILAŞDIRILMIŞDIR:**
Azərbaycan Respublikası Mərkəzi Bankın
Baş direktoru

__________________ V.C.Qurbanov

«__22__» ___aprel___ 2026-cı il

**TƏSDİQ EDİLMİŞDİR:**
"Qala Sığorta" Açıq Səhmdar Cəmiyyəti
İdarə Heyətinin sədri

__________________ F.K.Allahverdiyev

«__18__» ___mart___ 2026-cı il

# KOSMİK RİSKLƏRİN SIĞORTASI QAYDALARI

"Qala Sığorta" ASC

2026

# MÜNDƏRİCAT

ƏSAS ANLAYIŞLAR ..... 3
1. SIĞORTA SİNFİ ..... 5
2. SIĞORTA PREDMETİ ..... 5
3. SIĞORTA OBYEKTİ ..... 5
4. SIĞORTALININ KOSMİK FƏALİYYƏTİ ..... 6
5. SIĞORTA MƏBLƏĞİ ..... 7
6. SIĞORTA RİSKLƏRİ ..... 8
7. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI VƏ QÜVVƏDƏ OLMA MÜDDƏTİ ..... 10
8. SIĞORTA MÜQAVİLƏSİNƏ ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ ..... 12
9. ÜMUMİ İSTİSNALAR ..... 12
10. SIĞORTA HAQQI ..... 13
11. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERİLMƏSİ ..... 13
12. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ ..... 14
13. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ: ..... 15
14. SIĞORTA RİSKİNDƏKİ DƏYİŞİKLİKLƏR ..... 17
15. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ ..... 17
16. SIĞORTA HADİSƏSİNİN TƏSDİQİ ..... 18
17. SIĞORTA ÖDƏNİŞİ ..... 18
18. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI ..... 20
19. SUBROQASİYA HÜQUQU ..... 21
20. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ ..... 21
21. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI ..... 21
22. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI ..... 22
23. XÜSUSİ ŞƏRTLƏR ..... 22

## ƏSAS ANLAYIŞLAR

Əgər qaydaların məzmununda başqa cür nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunan termin və anlayışlar aşağıdakı mənaları daşıyır:

**Sığortalı** - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi;

**Sığortaçı** - sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs;

**Faydalanan şəxs(lər)** - sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi almaq hüququ olan şəxs;

**Aktuari** - qanunvericiliyə uyğun olaraq iqtisadi-riyazi hesablamalar aparmaqla sığorta haqlarının hesablanmasının əsaslarını müəyyən edən, həmçinin sığorta ehtiyatlarını hesablayan mütəxəssis;

**Sığorta obyekti** - sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyi;

**Sığorta predmeti** - sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu əmlak;

**Sığorta müqaviləsi** - sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma;

**Sığorta şəhadətnaməsi** - sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd;

**Sığorta marağı** - Sığorta marağı sığorta hadisəsinin baş verəcəyi təqdirdə şəxsin maliyyə itkisinə məruz qalması ehtimalı ilə şərtlənən və onun sığorta obyektini sığorta etdirmək hüququnun əsaslandığı mənafedir.

**Sığorta riski və ya risk** - sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik;

**Sığorta məbləği** - sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin qanunvericilik, yaxud müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

**Sığorta tarifi** - sığorta haqqının hesablanması üçün aktuari hesablamalarına əsasən müəyyən edilən faiz dərəcəsi;

**Sığorta haqqı** - risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;

**Sığorta təminatının müddəti** - sığorta risklərinin təminatda hesab olunduğu müddət;

**Azadolma məbləği** – Sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir. Azadolma məbləği hər bir halda sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən sığorta ödənişi məbləğinə tətbiq olunur.

**Gözləmə müddəti** - Sığorta hadisəsi nəticəsində həmin müddət ərzində yaranan itkilərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir.

**Sığortanın ərazisi** – sığorta obyektinin sığortalanmış hesab olunduğu müəyyən ərazi hüdudları.

**Sığorta hadisəsi** - qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində gözlənilmədən baş verən hadisə və ya yaranan hal;

**Sığorta tələbi** - sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya öz vəzifələrini qanunvericiliyə və sığorta müqaviləsinə uyğun olaraq icra etməsi barədə müraciəti;

**Sığorta ödənişi** - sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

**Əhəmiyyətli hallar** – Sığortaçının müqavilədən imtina etmək və ya onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən hallar əhəmiyyətli sayılır;

## 1. SIĞORTA SİNFİ

1.1 Sığorta obyektinə görə əmlak sığortasına aid olan əmlakın yanğından və digər risklərdən sığortası və ümumi mülki məsuliyyətin sığortası siniflərinə aiddir.

## 2. SIĞORTA PREDMETİ

2.1. Bu qaydalara görə Sığorta predmeti aşağıdakılar hesab olunur:

- Tam təssərrüfat idarəçiliyi yaxud operativ idarə etmə üçün sahiblik hüququna əsasən sığortalıya məxsus yerüstü kosmik texnikasının obyektləri;
- Kosmik fəaliyyətin həyata keçirildiyi vaxtda, sığortalı (sığorta olunan) və ya kontragentlər tərəfindən aparılan inşaat işləri zamanı, sığorta müqavailəsində qeyd olunan, inşaat predmetini özündə əks etdirən və inşaat meydanında yerləşən sığortalının yerüstü kosmik texniki obyektləri;
- Hazırlanması zamanı sığortalının kosmik raket texnikası obyektləri;
- Kosmik texnikalar üçün bazada saxlanılan kosmik raket texnikası obyektləri;
- Saxlanıldığı yaxud işə salındığı yerə nəql edilən zaman sığortalının kosmik raket texnikası obyektləri;
- Kosmik fəaliyyətin həyata keçirildiyi vaxtda, sığortalı (sığorta olunan) və ya kontragentlər tərəfindən aparılan montaj işləri zamanı, sığorta müqavilsəsində qeyd olunan, montaj predmetini özündə əks etdirən və montaj yaxud sınama komplekslərində yerləşən, sığortalının yerüstü kosmik texnika obyektləri;
- Uçuş sınaqlarında olan kosmik raket texnikası obyektləri;
- Kosmik məkanda istismarı zamanı kosmik raket texnikası obyektləri;
- İşə salma, uçuş sınaqlarının keçirilməsi və kosmik raket texnikası obyektinin orbitada istismarı zamanı, sığortalının (sığorta olunanın) kosmik fəaliyyəti ilə əlaqədar, hüquqi və fiziki şəxslərin əmlakına vurulan ziyana görə sığortalının (faydalanan şəxsin) mülki məsuliyyəti.

2.2. Bu Qaydalara əsasən sığortalının mülki məsuliyyəti dedikdə, uçuş sınaqlarında yaxud kosmik məkanda istismarı zamanı kosmik raket texnikası obyektlərinin gözlənilmədən baş verən qəzası nəticəsində onun hər hansı hissələrin və obyektlərin Yer kürəsi səthinə düşən zaman, üçüncü şəxslərin əmlakına dəyən zərərə görə ödənişlərin ödənilməsi üçün mülki hüququn normalarına əsasən sığortalının (sığorta olunanın) öhdəlikləri hesab olunur.

2.3. Həmçinin üçüncü şəxslər qarşısında məsuliyyət dedikdə, sığortalının (sığorta olunanın) kosmik fəaliyyəti ilə əlaqədar, digər uçuş və kosmik aparat ilə toqquşma səbəbilə, üçüncü şəxslərin əmlakına, səhhətinə və sağlamlığına dəyən zərərə görə ödənişlərin verilməsi üçün mülki hüququn normalarına əsasən sığortalının (sığorta olunanın) öhdəlikləri hesab olunur.

## 3. SIĞORTA OBYEKTİ

3.1. Sığorta obyekti kosmik fəaliyyət ilə məşğul olan sığortalının (faydalanan şəxsin) aşağıdakılarla əlaqəli Azərbaycan Respublikası Qanunvericiliyinə zidd olmayan əmlak mənafeləri hesab olunur:

- Yerüstü kosmik texnikanın istismarı zamanı ona olan sahiblik, istifadə və sərəncam, hazırlanma zamanı kosmik raket texniki obyektləri, saxlanılma, nəql etmə, işə salmaya hazırlıq, işə salma, uçuş sınaqlarının və kosmik məkanda istismar, zədələnmənin nəticələri, tam məhv olma, naməlum səbədən yox olma və itki;
- Yerüstü kosmik texnika obyektlərinin məhv olması və ya zədələnməsi səbəbilə, həmin obyektlərin inşası;
- Kosmik raket texnika obyektlərinin məhv olması və zədələnməsi səbəbilə, həmin obyektlərin montajı;

- Kosmik Raket Texnikası obyektlərinin işə salınması, uçuş sınaqları və kosmik məkanda istismarı zamanı, kosmik fəaliyyəti ilə əlaqədar sığortalının (faydalanan şəxsin) üçüncü şəxslərin əmlakına vurduğu zərərə görə ödənişlər.

## 4. SIĞORTALININ KOSMİK FƏALİYYƏTİ

4.1. Sığortalının kosmik fəaliyyəti dedikdə aşağıdakı mərhələlərdən ibarət fəaliyyət başa düşülür:

4.1.1. Kosmik-raket texnikasına aid obyektlər üçün:

- Hazırlanma;
- Daşınma;
- Saxlanılma;
- Montaj işlərinin aparılması və işəsalmaya hazırlıq;
- İşəsalma;
- Uçuş sınaqlarının keçirilməsi;
- Kosmik fəzada istismar.

4.1.2. Yerüstü kosmik texnika üçün:

- İnşaedilmə;
- İstismar.

4.2. Kosmik texnika dedikdə kosmik-raket texnikası və yerüstü kosmik texnika obyektlərindən ibarət, xüsusi olaraq kosmik fəaliyyətin həyata keçirilməsi üçün nəzərdə tutulan əmlak başa düşülür.

4.2.1. Aşağıdakılar yerüstü kosmik texnikalara aiddir:

- Kosmik texnikanın yaradılması və işlədilməsi üçün yerüstü istehsal və sınaq-eksperimental bazası, kosmonavtların hazırlığı üçün mərkəzlər və avadanlıqlar;
- Bina və tikililərdən, ötürücü qurğulardan, əsas və köməkçi avadanlıqlardan, maşın və mexanizmlərdən ibarət kosmodromlar, stasionar və mobil başlama kompleksləri, kosmik fəaliyyətlə bağlı işəsalma qurğuları;
- Kosmik texnikanın saxlanılma bazası;
- Kosmik obyektlərin enmə poliqonları və qalxma-enmə zolaqları;
- Hesablama texnikası və proqramlaşdırma vasitələri daxil olmaqla, xüsusi olaraq kosmik fəaliyyət prosesində istifadə üçün nəzərdə tutulan, kosmik sistemlərin yerüstü stansiyalarından, kosmik komplekslərin və digər yerüstü avadanlıqların avtomatlaşdırılmış idarə sistemindən ibarət yerüstü qərargah-ölçü kompleksləri, kosmik uçuşların idarəedilməsi mərkəzləri və məntəqələri, qəbul məntəqələri, informasiyanın saxlanılması və emalı məntəqələri/mərkəzləri/stansiyaları/kompleksləri;
- Kosmik fəaliyyət prosesində istifadə üçün nəzərdə tutulan xüsusi nəqliyyat vasitələri, istehlak olunan materiallar və məhsullar, komplekt elementləri, istehsalı bitməmiş obyektlər, hazır məhsullar, komplekt və ehtiyat məhsulları və bunlara daxil olan digər mallar;
- Kosmik fəaliyyətin həyata keçirilməsi üçün istifadə olunan digər yerüstü tikililər və texnika.

4.2.2. Kosmik raket texnikasına (bundan sonra “KRT”) aşağıdakılar aiddir:

- Kosmik komplekslərdən və raket-kosmik komplekslərdən ibarət kosmik sistemlər;
- Çıxarma sistemləri, kosmik aparatları və kosmik aparatların bloklarını, blokların müqavimət sipərləri və müdafiə sistemlərini özündə birləşdirən raket-kosmik kompleksləri;
- Raket daşıyıcılardan, sürətverici bloklardan və hava-kosmik sistemlərdən ibarət olan çıxarma sistemləri;
- Kosmik aparat (bundan sonra “KA”) qrupları və sistemləri və onların bölmələri və törəmələri və ya ayrıca kosmik aparatlar daxil olmaqla kosmik aparat blokları;
- Kosmik komplekslər, o cümlədən, kosmik aparatların tam orbital sistemləri, ayrıca kosmik aparatlar.

4.3. Kosmik fəaliyyətin həyata keçirilməsi zamanı olan tikinti işləri dedikdə, yerüstü kosmik texnikanın qurulması zamanı həyata keçirilən kompleks işlər başa düşülür.
4.4. Kosmik fəaliyyət zamanı həyata keçirilən montaj işləri dedikdə, buraxılışdan əvvəl sınaqların keçirilməsi daxil olmaqla, KRT obyektlərinin texniki və start komplekslərində buraxılışa hazırlanan kompleks işlər başa düşülür.

## 5. SIĞORTA MƏBLƏĞİ

5.1. Sığorta məbləği tərəflərin razılığına əsasən (sığortaçı və sığortalı), hər bir müqavilə üzrə kosmik texnikanın sığorta dəyərindən artıq olmamaq şərti ilə müəyyən olunur.
5.2. Müqavilənin bağlanma zamanı sığorta müqaviləsi ilə təyin olunan sığorta məbləği kosmik texnikanın dəyərini aşarsa, həmin müqavilə sığorta məbləğinin, sığorta dəyərindən artıq olan hissəsi həcmində etibarsız sayılır.
5.3. Sığorta müqaviləsində sığorta məbləği sığorta dəyərindən aşağı olarsa, sığortaçı sığorta hadisəsi zamanı, sığorta ödənişini sığorta məbləğinin sığorta dəyərinə olan nisbəti həcmində ödəyir, bir şərtlə ki, qismən sığorta barədə müddəa sığorta müqaviləsində əks edilmiş olsun.
5.4. Kosmik fəaliyyətininin müxtəlif mərhələlərində, bu Qaydaların 4.1.2-ci bəndində sadalanan yerüstü kosmik texnikanın sığortalanması zamanı sığorta məbləği aşağıdakı şəkildə müəyyən edilir:
5.4.1. İstismar dövründə - sığorta müqaviləsi bağlanan zaman, yerüstü kosmik texnikanın balanslaşdırılmış dəyərindən artıq olmayan hissəsi həcmində;
5.4.2. İnşaat dövründə - yerüstü kosmik texnikanın inşaatı müqaviləsinin (kontraktın) dəyərini aşmayan məbləğ əsasında.
5.5. Kosmik fəaliyyətininin müxtəlif mərhələlərində, bu Qaydaların 4.1.1-ci bəndində sadalanan KRT-nin obyektlərinin sığortalanması zamanı sığorta məbləği aşağıdakı şəkildə müəyyən edilir:
5.5.1. İstehsal dövründə - KRT obyektlərinin istehsalı müqaviləsinin (kontraktın) dəyərini aşmayan məbləğ əsasında;
5.5.2. Saxlanma dövründə - saxlanılan KRT oyektlərinin həqiqi dəyəri əsasında;
5.5.3. Daşınma dövründə - KRT obyektlərinin daşınma zamanı təyin olunan həqiqi dəyəri əsasında;
5.5.4. İşə salma hazırlığı və montaj işlərini tətbiq etmə dövründə - KRT obyektlərinin həqiqi dəyəri və işə salma hazırlığı müqaviləsinin (kontraktın) dəyərini aşmayan məbləği əsasında;
5.5.5. İşə salma dövründə - KRT obyektlərinin dəyərini və işə salma hazırlığı xərclərini aşmayan həqiqi dəyəri əsasında;
5.5.6. Uçuş sınaqları və kosmik məkanda istismar dövründə - istismar edən şirkətin balansına keçirilən zaman KRT obyektlərinin balanslaşdırılmış dəyərini aşmayan məbləğ əsasında.
5.6. Kosmik fəaliyyətinin növbəti mərhələlərində, bu Qaydaların 4.1.2-ci bəndində sadalanan yerüstü kosmik texnikanın sığorta məbləği, son sığortalanmış mərhələnin sığorta dəyəri həcmində müəyyən edilir. Bu halda sığorta müqaviləsinin hər mərhələsində, 5.2-ci bəndində qeyd olunan sığorta məbləğindən artıq olmamaq şərtilə məsuliyyət həddi tətbiq olunur.
5.7. Bu Qaydaların 4.1.1-ci bəndində sadalanan kosmik fəaliyyətin bir neçə ardıcıl mərhələsində KRT obyektləri üzrə sığorta məbləği axırıncı sığortalanmış mərhələnin sığorta dəyəri həcmində müəyyən edilir. Bu halda, bu Qaydaların 5.2-ci bəndində qeyd olunan sığorta məbləğindən artıq olmamaq şərtilə, sığorta müqaviləsində hər mərhələ üzrə məsuliyyət həddi müəyyən edilir.
5.8. Hər mərhələ üzrə məsuliyyət həddi dedikdə, sığorta müqaviləsi üzrə kosmik fəaliyyətin müvafiq mərhələsində baş vermiş bütün sığorta hadisələri üzrə Sığortaçının öhdəliyinin son həddi başa düşülür.
5.9. "Əmlakın məhv olması və ya zədələnməsinə görə üçüncü şəxslər qarşısında məsuliyyət" riski üzrə təminat verildiyi halda, həmin təminat üzrə müqavilədə ayrıca sığorta məbləği göstərilir. İşə düşən KRT obyektlərinin individual xarakteristikasını, uçuş sınaq proqramlarını və KRT obyektlərinin

kosmik məkanda istismarı proqramlarını, üçüncü şəxslərin ehtimal olunan iddialarını nəzərə alaraq, sığorta məbləği tərəflərin (sığortaçı və sığortalı) razılığına əsasən müəyyən edilir.

5.10. Hər bir sığorta müqaviləsində bir sığorta hadisəsi üzrə sığortaçının məsuliyyət həddi tətbiq olunur, hansı ki, sığortaçının hər bir hadisə üzrə ödəyəcəyi maksimal sığorta ödənişi hesab olunur. "Əmlakın məhv olması və ya zədələnməsinə görə üçüncü şəxslər qarşısında məsuliyyət" riskinin sığortasında şəhadətnamədə sığorta hadisələri qrupu üzrə sığortaçının aqreqat məsuliyyət limiti təyin oluna bilər, hansı ki, sığortalının maddi məsuliyyətinin müəyyən edilməsi üçün bütün sığorta hadisələri üzrə sığortaçı tərəfindən ödənilən sığorta ödənişin maksimal həddidir.

## 6. SIĞORTA RİSKLƏRİ

6.1. Bu sığorta növü üzrə aşağıdakı risklər üzrə təminat verilə bilər:

6.1.1. **"Yanğın"** - Xüsusi olaraq yandırılma (işə salınma) və saxlanılma üçün nəzərdə tutulmuş yerlərdə, yaxud təsadüfi və istehsal avadanlıqlarının gözlənilməz gizli nasazlıqları, statik elektrik boşalmaları, ildırım boşalmaları, elektrik ilə təchiz etmədə nasazlıqlar ilə əlaqədar, həmçinin həmin yerlərin sərhədlərini keçdikdə baş vermiş yanğının təsiri nəticəsində kosmik texnikanın məhv olması və ya zədələnməsi;

6.1.2. **"Partlayış"** - Məhdud həcmli qısa zaman aralığında, böyük həcmdə enerjinin təsadüfən və gözlənilmədən boşalması ilə əlaqədar, genişlənən parların yaxud qazların dağıdıcı təsirləri ilə müşayiət olunan, fiziki yaxud sürətli kimyəvi proses nəticəsində kosmik texnikanın məhv olması və ya zədələnməsi;

6.1.3. **"Subasma (daşqın)"** - subasma, torpaqaltı suların daxil olması, leysan sularının və buzların axını nəticəsində kosmik texnikanın məhv olması və ya zədələnməsi;

6.1.4. **"Mühəndis kommunikasiyalarından sızma"** - İşlək mayelərin yaxud parların çıxması ilə müşayiət olunan hidravlik sistemlərin (yanacağı və oksidləşdiricini ötürən və saxlayan sistem, temperaturu tənzim edən və həyatı təmin edən sistemlər, hidravlik sistemlər, su kəməri, kanalizasiya, istilik sistemləri, yanğına qarşı təhlükəsizlik (sprinkler) sistemləri və digər sistemlər) qəflətən xarab olması nəticəsində kosmik texnikanın məhv olması və ya zədələnməsi;

6.1.5. **"Külək, tufan, qasırğa (boran)"** - Sığortalanmış əmlakın yerləşdiyi ərazinin normativ təyinatlarını aşan sürətdə küləyin, tufanın və ya qasırğanın qəflətən təsiri nəticəsində kosmik texnikanın məhv olması və ya zədələnməsi;

6.1.6. **"Zəlzələ"** - İntensivliyi, sığortalanmış əmlakın yerləşdiyi ərazidə, tikililərin normativ təyinatlarını aşan zəlzələnin təsiri nəticəsində kosmik texnikanın məhv olması və ya zədələnməsi;

6.1.7. **"Torpaq sürüşməsi, qar uçqunu"** - İstənilən torpaq sürüşməsi, qar uçqunu, çirk və palçıq axını nəticəsində, kosmik texnikanın zədələnməsi yaxud məhv olması;

6.1.8. **"Atmosfer gərginliyi"** - Kosmik texnikanın ona gözlənilməz təsir edən və yanğın əmələ gətirməyən və ya səma ilə yer səthi arasında elektrik boşalması nəticəsində əmələ gələn birbaşa ildırım vurması səbəbindən zədələnməsi və ya məhv olması;

6.1.9. **"Xarici (kənar) təsirlər"** - Üçüncü şəxslərin təsirləri istisna olmaqla, kosmik texnikanın üzərinə gözlənilmədən uçan aparatların və ya onların hissələrinin düşməsi, gözlənilməz şəkildə nəqliyyat vasitələrinin vurması, gözlənilmədən qarın, dolunun, quşların, heyvanların, meteorit axınlarının, kosmik zərrəciklərin, Yerin radiasiya qurşaqlarının təsiri, KRT obyektləri və ya onların hissələri ilə kosmik fəzada toqquşması səbəbindən kosmik texnikanın zədələnməsi və ya məhv olması;

6.1.10. **"Kosmik avadanlığın qeyri-iş rejimi"** - Kosmik texnika elementlərində proseslərin cədvəldən kənar axınına yol açan, yolverilməz qızmalar, vibrasiyalar, dinamik zərbələr, mexaniki gərginliklər, elektrik kəsilmələri və yüklənməsi, hidravlik zərbələr, ferrorezonans gərginlikləri və tələb olunan nəticəyə nail olmamaqla, birbaşa təyinat üzrə olmayaraq, materialların, əşyaların, komplekt elementlərin hissəvi və ya tam məhvi ilə müşayiət olunan, parametrləri bu növ kosmik texnika üçün nəzərdə tutulmayan diapazon hüdudlarından kənarda yerləşən rejimlərin gözlənilməz təsiri səbəbindən kosmik texnikanın zədələnməsi və ya məhv olması;

6.1.11. **“Hazırlama (istehsal) və montaj səhvləri”** - Hazırlama, montaj və təhvil-təslim sınaqları zamanı həyata keçirilən yoxlama və diaqnostika metodları ilə aşkar oluna bilməyən daxili defektli materialların, detalların, hissələrin istifadəsi ilə əlaqədar hazırlama və montaj müəssisələrinin qəsdən olmayan səhvləri səbəbindən kosmik texnika elementlərinin gözlənilməz zədələnməsi nəticəsində kosmik texnikanın məhv olması və ya zədələnməsi;

6.1.12. **“Tikinti (inşaat) səhvləri”** - İnşaat boyu və ya təhvil-təslim sınaqları zamanı həyata keçirilən yoxlama və diaqnostika metodları vasitəsilə aşkar edilə bilməyən daxili defektli inşaat materialları və konstruksiyalardan istifadə ilə əlaqədar tikinti müəssisələrinin qəsdən olmayan səhvləri səbəbindən kosmik texnikanın elemetlərinin zədələnməsi nəticəsində kosmik texnikanın məhv olması və zədələnməsi;

6.1.13. **“İstismar səhvləri”** - İşçi heyətin zərərin qarşısının vaxtında, dəqiq, etibarlı formada almasını qeyri-mümkün edən gözlənilməz xarici faktorların təsiri nəticəsində qərəzli hərəkətləri və kobud ehtiyatsızlıqları istisna olmaqla, Sığortalının operativ-istismar və istehsal heyətinin səhvi nəticəsində, kosmik texnikanın gözlənilməz zədələnməsi və ya məhv olması;

6.1.14. **“Naməlum şəkildə itmə”** - Naməlum itmə və ya belə itmənin məlum olduğu tarixdən 180 gün müddətində haqqında heç bir xəbər olmaması və səlahiyyətli dövlət orqanlarının axtarışları dayandırması şərtilə, KRT obyektlərinin saxlama, montaj və işəsalma yerinə daşınması, işəsalma, uçuş sınaqlarının keçirilməsi və kosmik fəzada istismarı zamanı KRT obyektlərinin gözlənilməz şəkildə itməsi;

6.1.15. **“KRT-nin daşınma (nəql etmə) zamanı zədələnməsi və ya məhv olması”** – Kosmik raket texnika obyektlərinin daşınması zamanı, Kosmik raket texnika obyektlərini daşıyan nəqliyyat vasitəsinin qəzaya uğraması, aşması, çevrilməsi, dəmiryol nəqliyyatının dəmiryolu xətlərindən çıxışı, eniş zamanı zədələnmə də daxil olmaqla hava daşıyıcılarının düşməsi, gəminin qəzaya uğraması nəticəsində KRT obyektlərinin zədələnməsi və ya məhv olması;

6.1.16. **“Üçüncü şəxslərin qanunazidd hərəkətləri”** - oğurluq, qarət, quldurluq və digər qanunsuzhərəkətləri;

6.2. Əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, müqavilənin müəyyən şərtlərindən asılı olaraq, sığortalının (sığorta olunanın) əmlak mənafeyi aşağıdakı risklərdən sığortalanmış olur:

**6.2.1. İstismar mərhələsində yerüstü kosmik texnikanın sığortasında:**
“Yanğın”, “Partlayış”, “Subasma (Daşqın)”, “Mühəndis kommunikasiyalarından sızmalar (axmalar)”, “Külək, tufan, qasırğa (boran)”, “Zəlzələ”, “Torpaq sürüşməsi, qar uçqunu”, “Atmosfer gərginliyi”, “Xarici (kənar təsirlər)”, “Kosmik avadanlığının qeyri-iş rejimi”, “Hazırlama (istehsal) və Montaj səhvləri”, “Tikinti (inşaat səhvləri)”, “İstismar səhvləri”, “Üçüncü şəxslərin qanunazidd hərəkəti”.

**6.2.2. İnşaat mərhələsində yerüstü kosmik texnikanın obyektlərinin sığortasında:**
“Yanğın”, “Partlayış”, “Subasma (Daşqın)”, “Mühəndis kommunikasiyalarından sızmalar (axmalar)”, “Külək, tufan, qasırğa (boran)”, “Zəlzələ”, “Torpaq sürüşməsi, qar uçqunu”, “Atmosfer gərginliyi”, “Xarici (kənar təsirlər)”, “Tikinti (inşaat səhvləri)”, “Üçüncü şəxslərin qanunazidd hərəkəti”.

**6.2.3. İstehsal mərhələsində KRT obyektlətinin sığortasında:**
“Yanğın”, “Partlayış”, “Subasma (Daşqın)”, “Mühəndis kommunikasiyalarından sızmalar (axmalar)”, “Külək, tufan, qasırğa (boran)”, “Zəlzələ”, “Torpaq sürüşməsi, qar uçqunu”, “Atmosfer gərginliyi”, “Xarici (kənar təsirlər)”, “Kosmik avadanlığının qeyri-iş rejimi”, “Hazırlama (istehsal) və Montaj və istehsalda səhvləri”, “İstismar səhvləri”, “Üçüncü şəxslərin qanunazidd hərəkəti”.

**6.2.4. Saxlanma mərhələsində KRT obyektlərinin sığortasında:**
“Yanğın”, “Partlayış”, “Subasma (Daşqın)”, “Mühəndis kommunikasiyalarından sızmalar (axmalar)”, “Külək, tufan, qasırğa (boran)”, “Zəlzələ”, “Torpaq sürüşməsi, qar uçqunu”, “Atmosfer gərginliyi”, “Xarici (kənar təsirlər)”, “Üçüncü şəxslərin qanunazidd hərəkəti”.

**6.2.5. Daşınma zamanı KRT obyektlərinin sığortasında:**
“Yanğın”, “Partlayış”, “Subasma (Daşqın)”, “Mühəndis kommunikasiyalarından sızma”, “Külək, tufan, qasırğa (boran)”, “Zəlzələ”, “Torpaq sürüşməsi, qar uçqunu”, “Atmosfer gərginliyi”, “Xarici (kənar

təsirlər)”, “Naməlum şəkildə itmə”, “KRT-nin daşınma (nəql etmə) zamanı zədələnməsi və ya məhv olması”, “Üçüncü şəxslərin qanunazidd hərəkəti”.

**6.2.6. İşə salma hazırlığı və montaj işlərinin həyata keçirilməsi zamanı KRT obyektlərinin sığortasında:**

“Yanğın”, “Partlayış”, “Subasma (Daşqın)”, “Mühəndis kommunikasiyalarından sızma”, “Külək, tufan, qasırğa (boran)”, “Zəlzələ”, “Torpaq sürüşməsi, qar uçqunu”, “Atmosfer gərginliyi”, “Xarici (kənar təsirlər)”, “Kosmik avadanlığının qeyri-iş rejimi”, “Hazırlama (istehsal) və Montaj və istehsalda səhvləri”, “İstismar səhvləri”, “Üçüncü şəxslərin qanunazidd hərəkəti”.

**6.2.7. İşə salma mərhələsində KRT obyektlərinin sığortası:**

“Yanğın”, “Partlayış”, “Subasma (Daşqın)”, “Mühəndis kommunikasiyalarından sızma”, “Külək, tufan, qasırğa (boran)”, “Zəlzələ”, “Torpaq sürüşməsi, qar uçqunu”, “Atmosfer gərginliyi”, “Xarici (kənar təsirlər)”, “Kosmik avadanlığının qeyri-iş rejimi”, “Hazırlama (istehsal) və Montaj və istehsalda səhvləri”, “İstismar səhvləri”, “Naməlum şəkildə itmə”, “Üçüncü şəxslərin qanunazidd hərəkəti”.

**6.2.8. Uçuş sınaq və kosmik məkanda istismar mərhələsində KRT obyektlərinin sığortasında:**

“Yanğın”, “Partlayış”, “Subasma (Daşqın)”, “Mühəndis kommunikasiyalarından sızma”, “Xarici (kənar təsirlər)”, “Kosmik avadanlığının qeyri-iş rejimi”, “Hazırlama (istehsal) və Montaj və istehsalda səhvləri”, “İstismar səhvləri”, “Naməlum şəkildə itmə”.

6.3. Tərəflərin razılığına əsasən üçüncü şəxslərin əmlakının zədələnməsi və məhv olması ilə əlaqədar Sığortalının məsuliyyətinin yaranması riskinə əsasən **“Əmlakın məhv olması və ya zədələnməsinə görə üçüncü şəxslər qarşısında məsuliyyət”** sığortalana bilər.

Uçuş sınaqlarında və ya kosmik məkanda istismar zamanı qəflətən baş verən və sığortalının (sığorta olunanın) hərəkətləri (qəsdən etdiyi hərəkətlər istisna olmaqla) nəticəsində KRT obyektlərinin və ya onların hissələrinin Yer kürəsinin üzərinə düşməsi ilə əlaqədar, üçüncü şəxslərin əmlakının zədələnməsi və ya məhv olmasına görə, səlahiyyətli dövlət orqanının və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında sığortalının məsuliyyətinin yaranması sığorta hadisəsi olaraq təyin oluna bilər.

## 7. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI VƏ QÜVVƏDƏ OLMA MÜDDƏTİ

7.1. Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta müqaviləsi 1 il müddətinə bağlanılır.

7.2. Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsi halında, sığorta təminatının müddəti sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır.

7.3. Sığorta müqaviləsinin müddəti şəhadətnamədə göstərilmiş tarixdə saat 24:00-da bitir.

7.4. Qüvvədə olan müqavilədə qeyd olunan, kosmik fəaliyyətin mərhələsi üzrə sığortaçının məsuliyyəti, sığortalının (faydalanan şəxsin) kosmik fəaliyyətinin müvafiq mərhələsinin başladığı tarixdən qüvvəyə minir və müqavilənin qüvvədən düşmə müddətindən gec olmamaq şərtilə, müqavilədə qeyd olunan həmin mərhələnin qurtarma tarixində bitir.

7.5. Kosmik fəaliyyətin mərhələlərinin konkret başlanma və bitmə tarixləri sığorta müqaviləsində qeyd olunur. Bu halda:

7.5.1. KRT obyektinin istehsalı mərhələsi, obyektin faktiki istehsal zamanı başlanır və sifarişçinin nümayəndəsi tərəfindən qəbul edilmə haqqında aktın imzalanması zamanı bitmiş hesab olunur;

7.5.2. KRT obyektinin saxlanma mərhələsi onu anbara yerləşdirən andan başlanır və obyekt anbardan nəqliyyat konteynerinə yerləşdirilən zaman bitir;

7.5.3. KRT obyektinin daşınma mərhələsi onun nəqliyyat konteynerinə yerləşdirildiyi andan başlanır və təyin olunan məkanda obyektin çıxarılması zamanı bitir;

7.5.4. KRT obyektinin montaj işləri və işə salma üçün hazırlıq mərhələsi sınaq-montaj korpusunda nəqliyyat konteynerlərindən çıxarılma anından başlanır və işə salmaya icazə verilmə və ya "qalxma kontaktı" əmri verilən zaman bitir;

7.5.5. KRT obyektinin işə salma mərhələsi təsdiq edilmiş əmrin verilmə anından və ya təsdiq edilmiş "yüksəlmə kontaktı" siqnalının işə salma əmrindən sonra başlanır və müqavilədə təsbit olunan andan sonra bitir:

- raket - kosmik blokunun, ballistik kosmik aparatın, KA aralıq orbitə çıxarılması;
  və ya
- "KA çıxarılma sistemindən ayrılma kontaktı" siqnalının keçilməsi.

7.5.6. KA uçuş sınaqları işə salma etapı anından başlanır və müqavilədə qeyd olunan son ana kimi davam edir:

- istismara salma zamanı KA sınaqlarının ştatlı dövrün keçirilməsi (xidmətetmə);
- və ya KA iş qabiliyyəti ehtiyatlarından artıq olmayan ballistik KA üçün nəzərdə tutulan aralıq orbitlərdə və ya balistik trayektoriyada KA yerləşməsi;
- və ya çıxartma sisteminin fəaliyyət ehtiyatının müddətini keçməmək şərti ilə və KA muxtariyyət mövcudluğundan artıq olmayaraq uçuş sınaqları üzrə bütün növ yoxlamalar.

7.5.7. Kosmik məkanında KRT obyektlərinin istismar etapı KA uçuş istismarına təhvil vermə aktının imzalanması ilə başlanır və sığorta müqaviləsində qeyd olunan müddətdə bitir:

- kosmik məkanda KA zəmanətli fəaliyyəti;
- və ya orbitdə yerləşən Yer kürəsinin və ya başqa planetin süni peykinin aktiv mövcud olması.

7.5.8. Sığortaçının "Üçüncü şəxslərin əmlakının zədələnməsi və məhv olması" riski üzrə sığorta təminatı Sığorta müqaviləsinin son müddətini keçməmək şərtilə işə salma mərhələlərinin, uçuş sınaqlarının və kosmik məkanda sınaqların təminatı ilə bir vaxtda başlanır və bitir.

7.5.9. Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, istismar və (və ya) tikinti etapında qeyd olunan yerüstü kosmik texnikasının obyektlərinin sığorta müqaviləsi üzrə məsuliyyətmüqavilənin qüvvəyə minməsi zamanı başlanır və müqavilənin qüvvədən düşən zaman bitir.

7.6. Sığorta müqaviləsinin tərəfləri

7.6.1. Sığortaçı - Bu qaydalara əsasən sığortaçı dedikdə "Qala Sığorta" ASC başa düşülür.

7.6.2. Sığortalı - Bu qaydalara əsasən sığorta predmetinə münasibətdə əmlak maraqları olan hər hansı bir fiziki və ya hüquqi şəxs hesab olunur. Bu qaydalar daxilində sığortalının hərəkətlərinə onun işçilərinin, rəsmi şəxslərinin, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa, sığorta müqaviləsinə, vəkalətnaməyə (etibarnaməyə) və ya vəzifə öhdəliklərinə əsasən sığortalı adından çıxış etmək səlahiyyəti olan digər nümayəndələrinin hərəkətləri də aid edilir.

7.6.3. Faydalanan şəxs - sığortalı sığorta müqaviləsi bağlayarkən istənilən şəxsi (şəxsləri) faydalanan şəxs kimi təyin etmək, habelə sığorta hadisəsi baş verənədək onu dəyişdirmək hüququna malikdir. Faydalanan şəxs təyin edildikdə faydalanan şəxsin adı sığorta müqaviləsində göstərilməlidir. Sığorta müqaviləsinin faydalanan şəxsin xeyrinə bağlanması sığortalını müqaviləyə əsasən vəzifə və öhdəliklərindən azad etmir.

7.7. Sığorta müqaviləsi yazılı olaraq aşağıdakı hər hansı bir formada bağlanır:

7.7.1. tərəflərin müvafiq sığorta qaydaları əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;

7.7.2. müvafiq sığorta qaydaları ilə sığortalının razı olmasını təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən ona sığorta şəhadətnaməsinin verilməsi yolu ilə;

Bu Qaydaların 7.7-ci bəndində nəzərdə tutulmuş sığorta müqaviləsinin formaları elektron sənəd formasında da bağlana bilər. Sığortaçı müqavilə bağlanan zaman sığorta riskinin qiymətləndirilməsi

üçün məzmununu özünün müəyyən etdiyi sorğu blankının doldurulmasını tələb edə bilər. Sorğu blankının doldurulması tələb olunduduğu hallarda ərizə müqavilənin ayrılmaz hissəsi kimi nəzərdə tutulur.

7.8. Tərəflərin razılığına əsasən, kosmik texnika obyektinin sığortası müqaviləsi, sığortalının (sığorta olunanın) kosmik fəaliyyətinin həm ayrı-ayrı, həm də bir neçə ardıcıl mərhələləri üzrə bağlanıla bilər. Sığorta müqaviləsində (şəhadətnaməsində) həmçinin kosmik texnikanın obyektləri, kosmik fəaliyyətin mərhələləri, müqavilə üzrə kosmik fəaliyyətin mərhələləri üzrə və bir sığorta hadisəsi üzrə sığorta məbləği, sığortaçının məsuliyyət həddi, sığorta haqqının həcmi, azadolmalar, sığorta müqaviləsinin qüvvədə olduğu ərazi, sığortanın digər şərtləri göstərilir.

7.9. Azadolmalar həm bütün sığorta obyekti üzrə, həm də KRT obyektlərinin ayrıca elementləri üzrə tətbiq oluna bilər:

7.9.1. Şərtli azadolma məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda və ya sığorta müqaviləsində razılaşdırılmış hər hansı digər halın baş verməsi şərtilə azadolma məbləği tətbiq edilmir.

7.9.2. Şərtsiz azadolma məbləği nəzərdə tutulduqda isə həmin məbləğ hər bir halda tətbiq edilir.

7.10. Sığorta müddətində KRT obyektlərin vəziyyətini xarakterizə edən, təhlükəsizlik, eksperimental işləmə
və uçuş sınaqları proqramları təminatının həyata keçirilməsi haqqında məlumatlar, sığorta müqaviləsində qeyd oluna bilər.

7.11. Sığorta müqaviləsi (şəhadətnaməsi) sığortalıya təqdim olunur və sığortalı Qaydalar ilə tanış edilir.

7.12. Sığorta şəhadətnaməsi sığortalı tərəfindən itirildikdə, sığortalının müraciəti əsasında ona həmin şəhadətnamənin dublikatı ödənişsiz olaraq təqdim olunacaq, dublikat verildikdən sonra, itirilmiş şəhadətnamə etibarsız hesab olunur.

## 8. SIĞORTA MÜQAVİLƏSİNƏ ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ

8.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortalı və sığortaçı müqavilənin müəyyən şərtlərinin dəyişdirilməsi, həmçinin ona müəyyən əlavələr edilməsi barədə razılığa gələ bilərlər.

## 9. ÜMUMİ İSTİSNALAR

Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmursa, aşağıdakılara münasibətdə sığorta təminatı verilmir:

9.1. Yüksək günəş aktivliyi nəticəsində yer qurşaqlarının (boşluğu əhatə edən) və kosmik zərrəciklərin KRT obyektlərinə təsiri istisna olmaqla, nüvə partlayışının, radiasiyanın və ya radioaktiv çirklənmənin təsiri;

9.2. Hərbi əməliyyatlar zamanı və ya hər hansı silahları tətbiq etməklə keçirilən manevrlər və (və ya) başqa hərbi tədbirlər, eyni zamanda hər hansı hərbi vasitələrin, lazer və başqa energetik şüaların kosmik məkanında KRT obyektlərinə təsiri;

9.3. Müharibənin mövcud olub-olmamağından və ya fövqəladə vəziyyətdən asılı olmayaraq, vətəndaş müharibəsi, hər hansı xalq çaxnaşması, qiyamlar, inqilab, iğtişaşlar, üsyanlar, hakimiyyəti ələ keçirmək cəhdləri və ya hökumətin bu cür hadisələrdən qorunması tədbirləri nəticəsində yaranan zərərlər;

9.4. Tətillər, sığortalının (sığorta olunanın) və ya onun kontragentlərinin işçiləri tərəfindən təşkil edilən tətillər, törədilən sabotajlar və maliyyələşdirmənin kifayət qədər təmin olunmaması ilə əlaqədar işin tamamilə və ya qismən dayanması;

9.5. Kosmik texnikanın çıxarılması, müsadirəsi, rekvizisiyası, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə üzərinə həbs qoyulması və ya həmin əsaslarla məhv edilməsi;

9.6. Sığortalının (faydalananın) işçilərinin və ya onun kontragentlərinin (kontragentlərin işçiləri daxil olmaqla) kosmik texnikanın zədələnməsi və ya məhv olmasına səbəb olan qəsdən etdiyi hərəkətləri;
9.7. İstismar ilə bağlı texniki və normativ sənədlərin tələblərinin sığortalının (sığorta olunanın) işçiləri tərəfindən kobud pozulması;
9.8. Kosmik texnikanın obyektləri ilə eksperimental və/və ya tədqiqat işlərinin keçirilməsi, qeyri-stabil və ya kondisiyaya uyğun olmayan emalın, cihazların, aqreqatların tədbiq edilməsi;
9.9. İstismar müddəti bitən cihazların və/və ya aqreqatların istifadəsi;
9.10. Keyfiyyətsiz və/və ya uyğun olmayan vaxtda tikinti və montaj işlərinin icra edilməsi səbəbindən sığortalıya (faydalanana) qarşı cərimə, dəbbə pulu və ya kompensasiya ödənilməsi tələblərinin irəli sürülməsi;
9.11. Borc vermə və ödəmə qabiliyyəti, vaxtında çatdırılmama, inflyasiya, valyuta əlaqələrin dinamikası və s. ilə bağlı, sığortalının (sığorta olunanın) ticarət fəaliyyəti;
9.12. Üçüncü şəxslərin əmlakına, səhhətinə və sağlamlığına dəyən zərərə görə sığorta təminatının verildiyi hallar istisna olmaqla, KRT obyektlərinin qalıqlarının Yer kürəsi və ya digər planetə, habelə göy cisminin səthinə düşməsi nəticəsində üçüncü şəxslərin əmlakının məhv olması və zədələnməsi, həmçinin onların həyatına və sağlamlığına dəyən itki və ziyan ilə əlaqədar mənəvi zərər və dolayı itkilər ilə bağlı üçüncü şəxslərin irəli sürdüyü iddialar.

## 10. SIĞORTA HAQQI

10.1. Sığorta haqqı sığorta tariflərinə əsasən hesablanır.
10.2. Sığorta haqqı nağdsız qaydada bir dəfəyə və ya tərəflərin razılığına əsasən hissə-hissə ödənilə bilər.
10.3. Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir.
10.4. Sığorta haqqı və ya onun növbəti hissəsi sığorta müqaviləsində nəzərdə tutulmuş müddətədək ödənilmədikdə və ya sığorta müqaviləsində nəzərdə tutulduğundan daha az məbləğdə ödənildikdə:
- Bu halda sığortaçı onun ödənilməsi üçün Mülki Məcəllənin tələbini nəzərə alaraq, yazılı surətdə 15 (on beş) günədək əlavə müddət müəyyən edə bilər;

10.5. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 (bir) aydan gec olmayaraq ödənilməlidir.
10.6. Sığortalı sığorta haqqını və ya onun növbəti hissəsini sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə ödəmədikdə, sığortaçı sığorta müqaviləsinə xitam verə bilər.
10.7. Sığorta tarifi, sığorta haqqının hesablanması üçün sığorta məbləğinin müəyyən faiz dərəcəsi hesab olunur. Sığorta tarifi sığorta riskinin xarakterindən və sığortalının (faydalananın) kosmik fəaliyyətinin xüsusiyyətinə əsasən sığortaçı tərəfindən tədbiq olunur.

## 11. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERİLMƏSİ

11.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:
11.1.1. sığorta predmeti artıq mövcud olmadıqda;
11.1.2. aşağıdakı hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda:
11.1.2.1. əmlak sığortası müqaviləsini bağlamış sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış əmlakı qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs vəfat edərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri bu qaydalarla ilə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;

11.1.2.2. qanunvericilikdə və ya müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir;

11.1.2.3. sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə onun həmin müqavilə üzrə hüquq və vəzifələri müvafiq hüquq varisinə keçir.

11.1.3. Sığorta müqaviləsi üzrə sığortalı olmayan sığorta olunan vəfat etdikdə sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;

11.1.4. Qanunvericilikdə, yaxud sığorta müqaviləsində digər hal nəzərdə tutulmamışdırsa, sığortalanmış əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə; əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə sığortalı dəyişdirilir;

11.1.5. sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

11.1.6. sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam olaraq yerinə yetirdikdə;

11.1.7. sığortalı sığorta haqqını sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

11.1.8. sığorta marağı artıq mövcud olmadıqda;

11.1.9. sığortalı və ya sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə.

11.2. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, mülki məsuliyyət sığortası üzrə müqavilə məhkəmənin müvafiq qərarının qüvvəyə mindiyi andan xitam verilmiş hesab edilir, digər hallarda isə belə sığortalının hüquq və vəzifələrini onun qəyyumu və ya himayəçisi həyata keçirir.

11.3. Bu maddədə göstərilən hallarda sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda bu qaydaların 11.4-cü bəndi nəzərə alınmaqla müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

11.4. Sığorta müqaviləsinə bu qaydaların 11.1.9-cu maddəsinə uyğun olaraq sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.

## 12. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ

12.1. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı həmin müqavilə üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.

12.2. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır. Bu halda sığortaçı sığorta müqaviləsi üzrə (qrup halında

sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.

12.3. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

12.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu qaydaların 12.1-ci və 12.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

12.5. Sığorta müqaviləsi bu qaydaların 11.2-ci bəndində müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu qaydaların 12.3-cü və 12.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

## 13. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ:

13.1. Sığortalının vəzifələri:

13.1.1. sığorta haqqını vaxtında ödəmək;

13.1.2. eyni əmlakla bağlı digər sığorta müqavilələri barədə sığortaçıya məlumat vermək;

13.1.3. sığorta hadisəsi baş verdikdə, bu barədə Qaydaların 15.1-ci bəndində müəyyən edilmiş qaydada sığortaçını xəbərdar etmək;

13.1.4. sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən risklər barədə sorğu forması sığorta müqaviləsi bağlandığı zaman sığortaçı tərəfindən sığortalıya təqdim olunur. Sığortalı öz növbəsində sorğu formasındakı sualları dürüst və düzgün şəkildə cavablandırmalı və sığorta müqaviləsi qüvvədə olan müddətdə riskin dərəcəsi dəyişilərsə bu barədə sığortaçıya məlumat verməlidir;

13.1.5. Sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan və Sığortaçının 13.1.4-cü bəndə əsasən təqdim etdiyi sorğu ilə yazılı surətdə tələb etdiyi və müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməlidir;

13.1.6. Sığortalanmış kosmik texnikada, mümkün zərərin qarşısının alınması və azaldılması məqsədilə zəruri tədbirlər həyata keçirmək, sığorta hadisəsi baş verdikdə isə, əlavə zərərlərin baş verməsinə səbəb ola biləcək halların aradan qaldırılması üçün mümkün tədbirləri həyata keçirmək;

13.1.7. Sığortaçının (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxs) tələbinə əsasə sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları sığortaçıya təqdim etməlidir.

13.1.8. Sığortaçıya yerüstü kosmik texnikanın təmirdən əvvəl zədələnmiş obyektlərini və onların qalıqlarını,

həmçinin KRT obyektlərinin zədələnmiş hissələrini, detallarını və onun digər hissələrini yaxud onların qalıqlarını təqdim etməlidir.

13.1.9. Faydalanan şəxs sığorta ödənişini aldıqda subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.

13.1.10. Mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələr.

13.2. Sığortaçının vəzifələri:
13.2.1. sığortalını sığorta qaydaları ilə tanış etmək;
13.2.2. sığorta ödənişini bu Qaydaların 17.1-ci bəndində müəyyən edilmiş qaydada vermək; sığortalı barədə məlumatı, o cümlədən kommersiya sirri olan məlumatı yaymamaq;
13.2.3. sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən risklər barədə sorğu formasını sığorta müqaviləsi bağlandığı zaman Sığortalıya təqdim etməlidir.
13.2.4. sığorta hadisəsi hesab edilə bilən, araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu vermək;
13.2.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələr.

13.3. Sığortalının hüquqları:
13.3.1. Sığorta müqaviləsi bağlanarkən sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə tanış olmaq;
13.3.2. Kosmik texnikalar, yerüstü kosmik texniki obyektlər, KRT obyektlərin, həmçinin inşaat və montaj predmetləri üzrə sığorta müqavilələrinin bağlanması zamanı sığorta ödənişinin alınması üçün Faydalanan şəxsi təyin etmək, həmçinin həmin Faydalanan şəxsi öz istəyinə əsasən sığorta hadisəsinin baş verdiyi tarixə qədər başqası ilə əvəz etmək, müvafiq hallarda müqavilə üzrə məsuliyyəti Sığortalanmış şəxsi təyin etmək;
13.3.3. Sığorta müqaviləsi bağlanarkən bu Qaydalarla tanış olmaq;
13.3.4. Sığorta müqaviləsi üzrə istənilən açıqlamanı sığortaçıdan sorğu etmək;
13.3.5. Sığortaçının razılığı ilə sığorta məbləğinin və ayrı-ayrı sığorta riskləri üzrə sığorta məbləğlərinin ölçüsünə, sığorta müddətinə, sığorta haqlarının ölçüsünə dair sığorta müqaviləsinin şərtlərini dəyişdirmək. Belə dəyişikliklər sığorta müqaviləsinə əlavə sazişlə rəsmiləşdirilməlidir;
13.3.6. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermək;
13.3.7. Sığorta şəhadətnaməsi itdikdə və ya məhv olduqda onun dublikatını sığortaçıdan tələb etmək;
13.3.8. Bu Qaydalarda, sığorta müqaviləsində və qanunvericilikdə nəzərdə tutulan digər hüquqlardan istifadə etmək.

13.4. Sığortaçının hüquqları:
13.4.1. Sığorta müqaviləsi bağlanarkən sığortalının özünə məlum olan, sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortalıya sorğu vermək;
13.4.2. Sığortalanması nəzərdə tutulan və ya sığortaya qəbul edilmiş kosmik texnikaya baxış keçirmək, siyahıya almaq, sazlığını, bütövlüyünü, aşınmanın səviyyəsini və sığorta məbləğinin sığorta dəyərinə uyğun olmasını yoxlamaq;
13.4.3. Sığorta riski əhəmiyyətli dərəcədə dəyişdikdə (kosmik texnikanın həqiqi dəyərin artması/azalması, sığorta hadisəsinin baş vermə ehtimalın artması/azalması, nəzərdə tutlan sığorta ödənişin artımı), sığortaçı sığortalıdan əlavə sığorta haqqı tələb etmək hüququna malikdir.
13.4.4. Sığorta hadisəsinin baş verməsi səbəblərinin araşdırılması, və /və ya zərərin qiymətləndirilməsi üçün müstəqil eksperti, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxsi təyin etmək. Sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər;
13.4.5. sığorta hadisəsinin baş verməsi ilə bağlı olan və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları bu Qaydaların 13.2.4-cü maddəsi nəzərə alınmaqla, sığortalıdan tələb etmək;

13.4.6. Sığorta ödənişinin ödənilməsi zamanı sığorta ödənişi məbləğindən sığortalının sığortaçıya ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq;
13.4.7. Sığortalı tərəfindən bağlanan müqavilə şərtlərinə əməl edilməsini yoxlamaq;
13.4.8. Sığortaçı sığorta hadisəsi ilə bağlı həm onun, həm də sığortalının maraqlarının müdafiəsi üçün öz vəkilini və ya digər səlahiyyətli şəxsin təyin olunmasını zəruri hesab etdikdə - bu cür maraqların müdafiəsi üçün Sığortaçının göstərdiyi şəxslərə etibarnamə və ya digər zəruri sənədləri vermək. Sığorta hadisəsi ilə bağlı məhkəmədə sığortalının maraqlarını təmsil etmək və ya digər şəkildə Sığortalının hüquqi müdafiəsini həyata keçirmək sığortaçının öhdəliyi deyil, hüququdur. Sığortaçı məhkəmədə Sığortalının maraqlarını təmsil etməkdən imtina etdikdə, o, bu cür proseslərdə sığortalının maraqlarını müdafiə edən vəkillərin xidmətlərinin ödənilməsi üzrə faktiki xərcləri sığortalıya ödəyə bilər. Bu cür xərclər sığorta müqaviləsinin müəyyən etdiyi məsuliyyət həddində ödənilir;
13.4.9. Sığorta tənzimlənməsi zamanı əlavə ekspertizanın təyin edilməsi;
13.4.10. Sığorta riski həddində artım baş verdikdə ona mütənasib sürətdə sığorta haqqının artırılmasını, ona xitam verilməsini və ya müqavilə şərtlərinin dəyişdirilməsini Azərbaycan Respublikasının qanuvericiliyinə müvafiq qaydada tələb etmək. Bu halda tələb olunan dəyişiklik müqaviləyə əlavə tərtib olunmaqla tərəflərin qarşılıqlı razılığı əsasında imzalanması yolu ilə həyata keçirimələdir.
13.4.11. Bu Qaydalarda, sığorta müqaviləsində və qanunvericilikdə nəzərdə tutulan digər hüquqlardan istifadə etmək.

## 14. SIĞORTA RİSKİNDƏKİ DƏYİŞİKLİKLƏR

14.1. Sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən risklər barədə sorğu forması sığorta müqaviləsi bağlandığı zaman sığortaçı tərəfindən sığortalıya təqdim olunur. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində, sığortalı, sığorta müqaviləsi bağlanan zaman sığortaçıya bildirdiyi əhəmiyyətli halların dəyişilməsi, həmçinin sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən və ona məlum olan bütün digər hallar barədə sığortaçıya dərhal məlumat verməlidir.
14.2. Sığortaçı sığorta riskinin artmasına təsir edən hallar barədə məlumatı əldə etdikdən sonra aşağıda göstərilən hərəkətləri etmək hüququna malikdir:
14.2.1. sığorta müqaviləsinin şərtlərini və müddəalarını dəyişmək;
14.2.2. əlavə sığorta haqqının ödənilməsini tələb etmək və ya;
14.2.3. belə dəyişikliklərin baş verdiyi tarixdən sığorta müqaviləsinə xitam vermək.

## 15. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ

15.1. Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan şəxs, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda hәmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir. Sığortalı zərərin qarşısının alınması və ya təsirinin azaldılması və zərər vurulmuş əmlakın xilas edilməsi üçün bütün mümkün tədbirləri görməlidir.
15.2. Sığortalı sığortaçının və ya onun nümayəndələrinin zərər dəymiş əmlaka baxışın keçirilməsində və ya tədqiq edilməsində, vurulmuş zərərin səbəb və həcminin müəyyən edilməsində, iştirakını təmin etməlidir.
15.3. Qaydaların 13.2.4-cü bəndi nəzərə alınmaqla sığortaçının tələbi ilə sığortalanmış əmlakın məhv olması və ya vurulmuş zərərin həcmi və səbəblərini müəyyənləşdirmək üçün zəruri bütün məlumat və sənədləri sığortaçıya təqdim etməlidir.

15.4. Sığorta müqaviləsi üzrə sığortalı aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:

15.4.1. zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;

15.4.2. sığortaçı sığorta hadisəsi barədə bu qaydalarda nəzərdə tutulmuş qaydada məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;

15.4.3. digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

15.5. Sığorta ödənişi sığorta müqaviləsi (sığorta şəhadətnaməsi), faydalanan şəxsin yazılı ərizəsi, ona əlavə edilmiş aktı, səlahiyyətli dövlət orqanlarının və idarələrarası komissiya aktı, qəza sertifikatı, dəymiş zərərin təsdiqlənməsi və kalkulasiyası əsasında ödənilir.

15.5.1. Qəza sertifikatı (əmlakın məhv olması, itirilməsi və ya zədələnməsi, habelə üçüncü şəxslərə zərərin dəyməsi hallarının araşdırılması nəticəsində tərtib edilən akt) sığortalı və ya faydalanan şəxs tərəfindən sığortaçıya təqdim edildiyi tarixdən 10 iş günü ərzində sığortaçının və sığortalının (faydalanan şəxslərin) səlahiyyətli nümayəndələri tərəfindən hazırlanır. Qəza sertifikatında bunlarla məhdudlaşmayaraq, ən azı zərərin baş vermə səbəbi, məhv olmuş (zədələnmiş) kosmik texnikanın siyahısı, zərərin xüsusiyyətləri, sığortalının zərərin azaldılması üçün etdiyi hərəkətlər, təqsirli şəxslər, qəza sertifikatının hazırlanma tarixi göstərilir. Qəza sertifikatı iki nüsxədən ibarət olur, onlardan biri sığortalıya, digəri isə sığortaçıya verilir. Qəza sertifikatı sığortaçının sığorta ödənişini həyata keçirmək üçün şərtsiz sübutu deyildir.

15.5.2. Sığortalı və ya faydalanan şəxs sığortaçıya sığorta hadisəsinin səbəbini göstərən aşağıdakı aktları təqdim edir:

- üçüncü şəxslərin əmlakı məhv olduqda- KRT-nin hissələrinin Yerin üstünə düşməsi nəticəsində hüquqi və fiziki şəxslərin əmlakına zərər dəyməsi ilə əlaqədar sığortalının həmin zərərlər üzrə məsuliyyəti səlahiyyətli dövlət orqanının və məhkəmənin qərarı və ya Sığortalı və Sığortaçı arasında komissiya aktı ilə müəyyən edilir.
- digər hallarda - Sığortalı və Sığortaçı arasında komissiya aktı.

## 16. SIĞORTA HADİSƏSİNİN TƏSDİQİ

16.1. Sığortaçı (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxs) sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları bu qaydaların 13.2.4-cü maddəsi nəzərə alınmaqla, sığortalıdan tələb etmək hüququna malikdir.

16.2. Səlahiyyətli dövlət orqanları sığortaçının və ya onun nümayəndəsinin yazılı sorğusuna əsasən, sığorta hadisəsi ilə əlaqədar tələb olunan, yayılması "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan olunmayan istənilən məlumatı sorğunun daxil olduğu tarixdən etibarən 10 gün müddətində təqdim etməlidirlər.

## 17. SIĞORTA ÖDƏNİŞİ

17.1. Sığorta ödənişinin hesablanması qaydası:

17.1.1. Əgər sığorta məbləği sığorta dəyərinə bərabərdisə, Sığortaçının müqavilədə göstərilmiş müvafiq məsuliyyət həddindən çox olmamaq şərtilə, sığorta ödənişi birbaşa həqiqi zərər həcmində ödənilir.

17.1.2. Əgər sığorta məbləği sığorta dəyərindən aşağı olarsa, Sığortaçının müqavilədə göstərilmiş müvafiq məsuliyyət həddindən çox olmamaq şərtilə, birbaşa həqiqi zərər əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödənilir, bir şərtlə ki, qismən sığorta barədə müddəa sığorta müqaviləsində əks edilmiş olsun.

17.1.3. Sığorta müddəti ərzində bütün sığorta hadisələri üzrə ümumi sığorta ödənişi müqavilədə qeyd olunmuş sığorta məbləğini aşa bilməz.

17.1.4. Sığorta ödənişi Sığortaçı tərəfindən Faydalanan şəxsin hesablaşma hesabına nağdsız ödənişlə və ya qanunvericiliklə nəzərdə tutulmuş digər qaydada ödənilir.

17.1.5. Birbaşa həqiqi zərər dedikdə aşağıda qeyd olunlalar nəzərdə tutulur:

17.1.5.1. Kosmik texnikanın sığortalanmasında - sığorta hadisəsi nəticəsində kosmik texnikanın məhv olması və ya itkisi nəticəsində sığortalıya (Faydalanan şəxsə) dəyən zərər.

17.1.5.2. Məsuliyyət sığortasında - bir qəza nəticəsində, zərərin miqdarını təsdiqləyən sənədlər əsasında və iddiaların əsaslandırılmasından sonra KRT-nin hissələrinin düşməsi nəticəsində üçüncü şəxslərin əmlakının zədələnməsi, həyat və sağlamlığına zərər vurulması.

17.1.6. Zərərin miqdarı Sığortaçının səlahiyyətli nümayəndələri tərəfindən aşağıda qeyd edilən qaydada müəyyən edilir:

17.1.6.1. Sığortalanmış kosmik texnikanın tam məhv olmasında (itkisində) — Müqavilə bağlanan tarixdəki onun həqiqi dəyərindən gələcəkdə istifadə üçün yararlı olan qalıqlarının dəyəri çıxılır;

17.1.6.2. Kosmik texniki obyektlərin zədələnməsində (KRT-nın işə salınması mərhələsindən, uçuş sınaqlarından, kosmik məkanda istifadə edilməsindən başqa) - smetaya əsasən köhnəlmə və əmlakın zədələnmiş hissələrinin təmiri xərcləri miqdarından, köhnəlmə dəyəri əlavə edilməklə və istifadə üçün yararlı olan material və hissələr çıxılmaqla, zədələnmiş əmlakın təmirinə çəkilmiş xərclər;

17.1.6.3. KRT obyektlərinin işə salınması mərhələsində, uçuş sınaqlarında, kosmik məkanda istifadə edilməsi zamanı zədələnmə hallarında — Müqavilədə qeyd olunmuş bir sığorta hadisəsi üzrə məsuliyyət həddindən çox olmamaq şərtilə, zədələnmiş KRT obyektlərinin həqiqi dəyəri həcmində;

17.1.6.4. Üçüncü şəxslərin əmlakına dəyən ziyan (sığorta müqaviləsində qeyd olunmuş limit həddində):

- əmlakın tam məhv olması nəticəsində — sığorta hadisəsi nəticəsində dəymiş zərər həcmində;

17.1.6.5. Üçüncü şəxsin sağlamlığına zərər dəydikdə və ya o öldükdə sığorta ödənişinə daxildir:

- əmək qabiliyyətinin itirilməsinə və ya şikəstlik, yaxud səhhətinə dəyən digər zərər nəticəsində azalmasına görə zərərçəkənin itirdiyi qazanc;
- səhhətin bərpası üçün lazım olan əlavə xərclər (gücləndirilmiş qidalanma, sanatoriya-kurort müalicəsi, kənar qulluq, protezləşdirmə, nəqliyyat xərcləri, ödənişli tibbi xidmətlərə çəkilən xərclər və s.);
- qazancın elə bir hissəsi ki, zərərçəkənin ölümü nəticəsində onun himayəsində olan və ya ondan təminat almaq hüququna malik olan əmək qabiliyyətsiz şəxslər ondan məhrum olmuşlar;
- şəraitin ilkin araşdırılması və sığortalının və ya sığorta olunanın təqsirinin dərəcəsinin müəyyənləşdirilməsi üzrə çəkilən məqsədəuyğun xərclər;
- məhkəmə orqanlarında güman edilən sığorta hadisəsi ilə bağlı işlərin aparılması üzrə xərclər;
- sığorta hadisəsi nəticəsində zərər çəkən şəxsin həyatının və əmlakının xilas edilməsi və ya zərərin azaldılması üçün çəkilən lazımi və məqsədəuyğun xərclər.

17.1.7. Zərər smetasına (kalkulyasiyasına) ancaq sığorta hadisələri ilə bağlı olan xərclər daxildir. Bununla bərabər zədələnmiş kosmik texnikanın hissələri, detalları və ona məxsus olan digərləri o zaman hesaba daxil olur ki, onları təmir etmək mümkün olmasın.

**17.1.8. Bərpa edilmə xərclərinə daxildir:**

17.1.8.1. Dəyərlərini sığorta müqaviləsinin bağlandığı anda nəzərə almaqla, materialların və ehtiyat hissələrinin bərpasına çəkilən xərclər;

17.1.8.2. Bərpa edilmə üçün təmir xərcləri, hansılar ki, bərpa edilmə (təmir prossesində) materiallarının və ehtiyyat hissələrinin amortizasiya xərcləri çıxılmaqla müəyyən edilir.

**17.1.9. Bərpa edilmə xərclərinə aşağıda qeyd olunanlar daxil deyil:**

17.1.9.1. Texniki xidmət və zəmanət təmiri xərcləri;

17.1.9.2. Müddəti bitmiş detalların, texniki qüsurların və s. rekonstruksiya, yenidən təchiz edilmə, əvəz edilmə və təmir xərcləri;

17.1.9.3. Hər hansı hissələrin təmiri zamanı, təmir müəssisələrində zəruri ehtiyat hissələrinin olmadığı halda, həmin hissələrin əvəz edilməsi dəyəri (təmir əvəzinə).

17.1.10. Sığorta hadisəsi ilə bağlı, təmir (bərpa) zamanı gizli qüsurlar aşkar olunduğu halda, bu zədələr üçün sığorta ödənişini almaq üçün faydalanan şəxs təmir prossesində müvafiq ərizə ilə Sığortaçıya müraciət etməlidir. Sığortaçı əlavə smeta hazırlamalı, zərər miqdarını təyin etməli və müqavilə və qaydalara əsasən müvafiq müddətə qədər sığorta ödənişini həyata keçirməyə borcludur.

17.1.11. Tərəflərdən birinin tələbi ilə, zərərin miqdarı müstəqil ekspert tərəfindən müəyyən edilə bilər. Bu halda ekspertin xidmət haqqı qanunvericiliklə müəyyən olunmuş qaydada ödənilir.

17.1.12. Kosmik fəaliyyətin müəyyən mərhələsində sığorta hadisəsi baş verən andan etibarən müqavilənin qurtarmamış müddət üzrə müvafiq sığorta məbləğləri və məsuliyyət hədləri ödənilmiş sığorta ödənişi həcmində azaldılır.

17.1.13. Sığortalanmış kosmik texnikanın bərpasından və ya dəyişdirilməsindən sonra sığortalı, əlavə sığorta haqqı ödəməklə, əvvəlki sığorta məbləğini bərpa etmək hüququna malikdir.

## 18. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI

18.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

18.1.1. Bu qaydaların 15.1-ci maddəsinin tələblərinə əməl edilməməsi nəticəsində sığortaçının hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyənləşdirmək imkanından məhrum olması;

18.1.2. Mülki Məcəllədə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin müvafiq hadisənin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə hadisə ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

18.1.3. Müqavilə ilə hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

18.1.4. Sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

18.1.5. Zərər dəymiş əmlakın sığortaçıya təqdim edilməsi ilə bağlı bu qaydaların 15.4-cü maddəsinə riayət edilməməsinin sığortaçını zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;

18.1.6. Sığorta predmeti, həmçinin sığorta olunan şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

18.1.7. Əmlakın sığortası üzrə sığortalı, sığorta olunan və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir.

18.1.8. Baş vermiş hadisənin sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

18.1.9. Sığorta haqqının növbəti hər hansı bir hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu qaydaların 10.5-ci maddəsində nəzərdə tutulmuş halda isə

sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra sığorta hadisəsinin baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda;

18.1.10. Sığorta müqaviləsində və ya sığorta şəhadətnaməsində nəzərdə tutulan mühüm şərtlərin sığortalı tərəfindən yerinə yetirilməməsi, yaxud da sığortalının belə şərtlərə əməl etməməsi;

18.1.11. Bu qaydaların 13.4.3-cü maddəsində nəzərdə tutulmuş məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən sığortaçıya məlum olduqda və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli olmadıqda, habelə tələb olunan məlumata sığortalının cavab verməməsinə baxmayaraq sığorta müqaviləsi bağlanmış olduğu halda sığortaçı sığorta ödənişinin verilməsindən imtina üçün yanlış məlumatın verilməsi və ya tələb olunan məlumatın verilməməsi faktına əsaslana bilməz.

18.1.12. Bu qaydaların 18.1.5-ci maddəsində müəyyən edilmiş hallarda sığortaçı zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olduqda belə, aşkar faktlarla sübut olunan həcmdə sığorta ödənişindən imtina edə bilməz.

18.1.13. Mülki Məcəllədə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığorta hadisəsi onun baş verməsinə yönələn, sığorta müqaviləsi üzrə sığortalı və (və ya) sığorta olunan hesab edilməyən faydalanan şəxsin qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi nəticəsində baş verdikdə, həmin faydalanan şəxs sığorta ödənişini almaq hüququndan məhrum olur.

## 19. SUBROQASİYA HÜQUQU

19.1. Subroqasiya hüququ sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur.

19.2. Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq əmlak sığortası üzrə sığorta ödənişini vermiş sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.

19.3. Faydalanan şəxs sığorta ödənişini aldıqda, subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.

19.4. Faydalanan şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri sığortaçıya verməkdən imtina etdikdə, sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.

19.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin qanunvericiliyə əsasən, dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

## 20. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

20.1. Bu qaydaların şərtlərinin yerinə yetirilməməsinə yə ya lazımı qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## 21. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI

21.1. Sığortaçı, sığortalıya aid öyrəndiyi və ya iş prosesində öyrənəcəyi iş sirlərini gizli saxlamadığı halda sığortalıya dəyən maddi və ya mənəvi zərərə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

## 22. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

22.1. Bu qaydalara əsasən bağlanmış sığorta müqaviləsindən irəli gələn bütün mübahisələr ilkin olaraq danışıqlar yolu ilə pretenziya qaydasında, tərəflər arasında razılığa gəlinmədiyi təqdirdə isə Azərbaycan Respublikasının Mərkəzi Bankına şikayətlə müraciət etməklə, yaxud Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhkəmələr vasitəsilə həll edilir.

## 23. XÜSUSİ ŞƏRTLƏR

23.1. Tərəflərin qarşılıqlı razılığına əsasən, Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Qaydalara zidd olmaması şərtilə, sığorta müqaviləsində əlavə şərtlər nəzərdə tutula bilər.